

■ Rövşən Xasayoğlu

## NÖMRƏLƏR MƏZARLIĞI

*Babək Qurbanovun əziz xatirəsinə*

Yenə bir dostumdan gəldi bəd xəbər,
Yol aldı əbədi haqq dünyasına.
Hər xəbər canımdan can alıb gedər,
Küsərəm dünyanın puç vəfasına.

Yenə bir dostumun telefon nömrəsi,
Kədərli-kədərli gözümə baxar.
Yenə bir nömrənin səssiz naləsi
Qəlbimə od salıb, canımı yaxar.

Ruhum rəva bilmir silim nömrəni,
Barmağım alışar üstünə bassa.
Nömrəni görəndə dünyanın qəmi,
Üstümə yüklənir, batıram yasa.

Dostun əmanəti telefon nömrəsi,
Bəzən yanlışlıqla yığanda sizi,
Duyuram kədərli başqa bir səsi -
Acıdır qəlbimi, "köçdü" kəlməsi.

Bəzən bu nömrədən zəng gələr sənə,
Eşitmək istərsən dostunun səsin.
Xəttin o başında qızı sən demə,
Qəlbində boğular o an həvəsin.

Sahibsiz nömrələr, ağrılı sinəm,
Çevrilib nömrələr məzarlığına.
Günlərin birində mənim də nömrəm,
Salar yoxluğumu dostun ağlına.

## BİZ OLDUQ

Hər sözdən, söhbətdən darılan, küsən,
Sevgin ayaz vurmuş saralmış çəmən.
Yazın ortasında şaxtatək kəsən
Soyuq məhəbbətdə donan biz olduq

Sevgi tısbağatək yatarsa qında,
Məhəbbət aslısa pambıq sapında,
Eşq də tükənərsə göz qırpımında,
Sevgi dastanında yalan biz olduq

Məhəbbət gor edib, yoxsa əzəldən,
Baxar kor olmuşuq, iş gəlmir əldən.
Anlamaq çətinmiş eşqdən, gözəldən
Sevgidən sinifdə qalan biz olduq

Məhəbbət dəryada yalqız bir ada,
Bağırsan səs çatmır, yetişmir səda,
Sevgi yollarında qalıb piyada,
Büdrəyib ayağı sınan biz olduq

## ALNIMDAKI QIRIŞLAR

Həyatımın bəxş etdiyi alnımdakı qırışlar,
Gəncliyimin gedişinin cığırları, izləri.
Ağ saçlarım ömrümdəki günahlarımı daşlar.
İtirirəm ildən-ilə duyğuları, hisləri.

Göz zəiflər, qulaq duymaz, burun almaz qoxunu,
Qocalığın çox yaxında duyulur ayaq səsi.
Hiss edərik canımızda ölüm adlı qorxunu.
Yaş artıqca insanlarda artar torpaq həvəsi.

Yaş ötəndə altımışı gözləyirik dəvəti
Dəvət alan kimsələr də tərk eləyər məclisi.
Axirətdə ya cəhənnəm, ya cənnətdir qisməti,
Ölüm xəbərli Əzrail Tanrımızın elçisi.

Qocalığın gəlişimi alnımdakı qırışlar?
Yoxsa, mənim dünyadakı var-dövlətim, qazancım?
Yerli-yersiz gözlərimdən axıb tökülən yaşlar,
Ömrümdəki günahlarım, xətalarım, utancım.

## OLMAZSA

Qəribliyin övladına qəribsə,
Aranıza fərqli vətən giribsə,
Yolayrıcı səni yolda itirsə,
Əcəldən başqası səni aramaz.

Yaman uzun olur qürbətin qışı,
Payızın bezdirər soyuq yağışı,
Küləyin buz kimi qana axışı,
Qanını dondurar, saçı daramaz.

Həsrət, hicran qəlb həmdəmin, sirdaşın
Qapını tanımaz bacın, qardaşın
Qismətlə, yazıyla ovunar başın
Malın da, mülkün də işə yaramaz.

Ömür ötüb keçər eldən aralı,
Çırpınıb durarsan könlü yaralı,
Sən tənha, qəriban, çoxu buralı,
Nazın keçməz, bir kimsəyə etmə naz.

Dünya sirli, bilinməz ki gərdişi,
Hər gəlişin bir gün olur dönüşü,
Mən qəribin el-obayla görüşü,
Olmazsa, qismətdən Rövşən yarımaz.

## ÖLÜM

Ölüm, bir kor quyu, dərin dərədi
Durmadan dağıdar sağ-sola dərdi.
Harda yaxşı gördü ilk onu dərdi,
Pis, pisin vurubdur, yox onla dərdi.

Ölüm hər canlının dadacağı dad,
Hər kəsin əzəldən sevmədiyi ad,
Yalvarıb-yaxarıb istəmə imdad,
Bəlkə, dəyərlidir ölümlə həyat?

## YARADANIN QULUYAM

Nemətlərə qul olmam, Yaradanın quluyam.
Doğruların diliyəm, nahaqqı kəsən qolam.
Hər sözü düz söyləmək eyləməz işi tamam,
Əməllərim sözümlə düz gələrsə doğruyam.

Nəfsini öldürənlər belin qırar şeytanın,
Tamahını yenənlər uzaqdılar haramdan.
İnsanın başın qatar ticarəti dünyanın
Malla, mülklə dəyişər gəncliyi çərxi-dövran.

Kaspi 2019.- 19-21 oktyabr.- S.21.